# İnqilab və Mədənijjət



1934

№ 5

# TƏRLAN

S. Hysejn

(«ARMUS» ROMANЬNDAN)

## I

Məhsinbəj Lalajevin bang myamələtьnda mysəlmanlara qarşь bəslədigi bu mənfi əlaqəni erməni qataliqosu Xrimjan Hajrьqьn Bakьda olurkən, erməni zəngin və zijalьlarьna səjlədigi bir səzlə əlaqələndirməgə calьşaraq ilavə etdi:

— Sən hec bilirsənmi ki, qataliqos burada ermənilərə nə səjləjibdir?

— Nə səjləjibdir?—Şərif gənylsyz sual etdi.

— O, dejibdir ki, Tiflis erməniləri sizdən daha əqilli və baçarьqlьdьrlar. Onlar Tiflis upravasьnь əz əllərinə ala biliblər. Siz isə hələ də mysəlmanlarьn qujruqunda syrynyrsynyz!

Şərifi bu səz bir qədər dyşyndyrdy.

— Sən haradan bilirsən ki, qataliqos belə səz səjləjib?..

— Çənab aqa Şərif, mən coq şej bilirəm—dejərək Məhsinbəj əzyny əjməgə başladь. Mən bu səzy vəkilim Arşaq Semjonovicdən eşitdim.

O, mənim ycyn danьşdь ki, bu saat Lalajev calьşьr ki, Bakь upravasьndan mysəlmanlarь sьqьşdьrьb cьqartsьn. Buranь da Tiflis upravasь kibi əz əllərinə alsьnlar. Amma bizimkilər isə qьrqavьl kibi başlarьnь kola soqub qujruqlarьndan xəbərləri joqdur.

Parapetin janьnda Məhsinbəj ondan ajrьlьb bir syt dykəninə girdi. Şərif joluna davam edərək əz fikrilə məşqul olmaqa başladь. O, bir qədər Məhsinbəjin səjlədiklərini dyşynərək sonra gedəçəgi jьqьnçaqьn ystynə qajьtdь. Onu bu jьqьnçaqa jaqьn dostu Sejfi caqьrmьşdь. Iki joqsul tələbənin fajdasьna bir teatr tamaşasь vermək istəjirdi. Iki aj bundan əvvəl onlar jenə bu tələbələr ycyn bir teatr ojnamьşlardь. Dajьsilə də hələ bu teatrda iştirak etdigi ycyn pozuluşmuşdu. Indi Şərifi maraqlandьran bir məsələ var idi: bu iki joqsul tələbə kimdir? Nəjə əzləri jaqьn gəlib ojunlarda iştirak etməjirlər—birdən Şərifin fikrinə bir şej gəldi: bəlkə Sejfi iki joqsul tələbə adь ilə bu tamaşalarь əzy ycyn ojnadьr. Bu barədə o, bir qədər fikrini jordusa da qət'i bir rə'jə gələ bilmədi. Əzyny buna inandьra bilməjirdi. O, Sejfini coq jaxşь tanьjьrdь. Sejfinin ondan gizlin hec bir işi olmazdь. Bunu nəzərə alaraq Sejfinin vəzijjəti bu saat coq jaxşь idi. Şəhər məktəblərinin birində myəllimlik edir, ajda 75 manat maaş alьrdь. Xysusi dərslərdən də 40 manata qədər gəliri var idi. Əzy də tək bir adam idi, pəs bu iki joqsul tələbə kimdir?

Şərif bu fikrindən dajьsь Haçь Məhəmməd Haşьmьn dəniz qьraqьnda olan karvansarasьnьn qabaqьnda ajьldь.

Jьqьnçaq bu karvansaranьn bir hyçrəsində jaşajan Musanьn mənzilində olaçaqdьr. O, Musanь ta uşaqlьqdan tanьjьrdь. Onunla bir jerdə bəjymyşdy. Musa kicik jaşlarьnda ikən dajьsьgildə ev gədəsi idi. Bəjydykdən sonra Haçь Məhəmməd Haşьm onu əz tiçarətxanasьnda priqaşşiq kibi işlədirdi.

Şərif daş pilləkənləri juqarь qalqdьqda saat 9 idi. Musanьn mənzil qapьsьnь acdьqda joldaşlarьnь orada hazьr gərdy; onlar jeddi nəfər idi. Içlas başlamьşdь. Sejfi danьşьrdь.

Şərifin gəlməsilə içlas bir az pozuldu. Məhəmməd zarafata başladь.

— Allah bəjyklərin xasijjətini kəssin—dedi.

Mehdibəj o ətli gəzlərilə gylərək əz şair və ədibligini birinçi dəfə mənzilinə gəlməklə tanьş olduqu Musaja anlatmaq ycyn bir mьsrə' şeir ilə Səmədə çavab verdi.

—Rəsmi budu ən sonda gələr bəzmə əkabir—dedi.

— Aj kişilər, bu geçə mənimki hec gətirməjibdir. Bir kənək adama rast gəlmişəm ki, hec bir nev'lə başa cьqasь dejiləm—dejib Şərif Məşədi Məhərrəmlə olan maçərasьnь anlatmaqa başladь.

— Dejir ki, mən oqurlajaçaqam, sən də gərək gərməjəsən.

— Məsələ belədir, dejə Sejfi Şərifə myraçəətlə içlasьn nəzəri-diqqətini əzynə çəlb etdi. Biz sənsiz myzakərə başlajьb bu qərara gəlmişik ki, dedigin iki joqsul tələbənin fajdasьna ikinçi tamaşamьzь verək. Bu tamaşanь şəhərdə Taqijevin teatrosunda və ja kəhnə Dumun zalьnda dejil Sabuncuda «Reçord» teatrosunda ojnamaq istəjirik.

— Nəjə?—Şərif soruşdu.

— Ona gərə ki, əgər Sabuncuda ojnasaq, bilet satmaqda bizim işimiz olmajaçaqdьr.

— Bəs biletləri kim sataçaqdьr?

— Fə'lələr arasьnda işləjən joldaşlar var, onlar sataçaqlar. Zənn edirəm sən də bunu e'tiraz etməsən.

Şərifin də e'tirazь joq idi.

— Əgər siz buna razь olursanьzsa mənim də sozym joqdur.

— Joldaşlar razь olublar—Indi məsələ hansь əsəri ojnamaq barəsindədir.

Sejfinin bu bəjanatilə myzakərə jenidən başladь. Içlasьn sədarəti Mehdibəjdə idi. Ortada bir neçə təklif var idi. Səməd «Vəziri-xani-ərəb»-ni, Məhəmməd Həsən «Haçь Qaranь», dərzi Ismajьl isə «Pəhlivanani-zəmanə»-ni təklif edirdi.

Şərif də təklif etdi ki, qadьn rolu olmajan bir əsər intixab olunsun. Ixtilafь Sejfinin səzy kəsdi.

—Mənçə,—dedi,—gəliniz hələlik bu məsələni acьq buraqaq, siz mənə izin veriniz mən bizdən ətry bilet sataçaq joldaşlardan soruşum. Biz bu tamaşanь fə'lələr ycyn ojnajaçaqьz. Fə'lələr ycyn hansь əsər mynasib olarsa onu ojnajarьq.

Sejfinin bu fikrinə kimsə e'tiraz etmədi. Ikinçi dəfə toplanmaq ycyn vaqt tə'jin etmək istədikdə Sejfi dedi ki:

— Yc gyn sonra, çymə aqşamь, saat 7 tamamda jenə buraja toplanarьq.

Musa bir səz demək istəjirdi, ançaq utanьrdь. Çymə aqşamь o, əz mənzilində olmajaçaqdь. Şərifə jaqьnlaşьb onun qulaqьna pьsьldadь.

— Aqa,—dedi—çymə aqşamь xanьmьn qьrq ehsanьdr, pəs siz orada olmajaçaqsьnьz?

Şərif dajьsь arvadь Şərəbanь xanьmь xatьrladь.

— Aqalar, çymə aqşamь biz gələ bilməjəçəgiz, başqa bir gynə salsanьz jaxşьdьr.

— Nejə gələ bilməjirsiniz—dejə Sejfi soruşdu.

— Iş burasındadur ki, dajımın ehsan məçlisi var. Mərhum əjalı ycyn qırq ehsanı verəçəkdir, mən də, Musa da o məçlisdə olaçağız.

Sejfi:

— Jaxşı jadıma saldın; hələ bir de gørym o qız nə qajırır?

— Dajım øləndən sonra mən onu gørməmişəm. Sejfilə Şərifin arasında olan bu sual-çavabdan kimsə bir şej başa dyşmədisə də Səməd maraqlanaraq zarafata başladı.

— Qız?—qız?.. neçə jə'ni qız.

— Elə bir şej de'il—bir neçə gyn bundan əvvəl ikimiz sahibsiz bir qıza rast gəlmişdik, onu soruşdum.

Mehdibəjdə bu qız məsələsindən maraqlanmağa başladı:

— Sizdə təzə xəbər vardır. Sahibsiz qıza rast gəlmisiniz. Bəs o qız indi kimin janında jaşajır.

— Dajım arvadı Şərabanı xanımın janında jaşajır—Şərif çavab verdi.

Indi hər kəsin ağzından bir søz çıqırdı. Şərif bir qədər pərt olmuşdu. Axırda Məhəmməd Həsən:

— Aj balam, bir bizi də başa salın, bu qız neçə olan şejdir?

— Bu əhvalat bir qədər uzundursa da, sizi şybhədən qurtarmaq ycyn təfsilatını søjlərik, ançaq əvvəlçə gəlin jığınçağımızın vaqtını tə'jin edək. Jekşənbə gyny aqşam saat 7 tamamda jenə buraja, razısınızmı?

Hamı razı oldu.

— Indi qulaq asın mən bu qızın sərgyzəştini sizə søjləjim. Bəlkə sizin də ona bir køməkliginiz dəjər.

Hər zaman zarafat etmək istəjən Səməd:

— Jalnız bir şərtlə, dedi.

— Nə şərtlə?

— O şərtlə ki, bir kəlmə də o-jan-bu-jan olmasın. Joldaşçasına hamısını açıb søjləjəsiniz.

— Iş belədir, Sejfi başladı. Mən bu jazda Qazanda imtəhanları verib qurtarmaq yzrə idim. Bu halda Şərifdən bir teleqraf aldım ki, o dajısı Haçı Məhəmməd Haşımın işlərindən øtry Həştərxana gəlibdir. O, mənim Bakıja qajıdaçağımı, bir il burada qalıb qulluq edəçəgimi bilirdi. Mən bu barədə ona myfəssəl bir məktub jazmışdım. Mən işlərimizi bitirib ijunun ortalarında Həştərjana gəldim. Biz Bakıja Haçı Məhəmməd Hamışın «Iran» adlı paroxodilə qajıtmaq istəjirdik. «Iran» isə Qrasnovodskidən Həştərxana gələçək, sonra Bakıja døndəçəkdi. Biz paraxoda oturduqda sərnişinlər arasında xəstə bir qadına rast gəldik. Qapitanın anlatdığına gørə o, bu qadını pulsuz olarq paroxoda Qrasnovodskidən mindirmişdi.

— Bu qadının janında bir də çavan qız vardı.

— Nə millət idilər, Səməd soruşdu.

— Mysəlmandılar—Həştərxandan hərəkət etdigimiz gynyn geçəsi arvadın halı fənalaşdı. Mən neçə bir doqtor namzədi onu nəzərdən keçirdim. Xəstənin halı umudsuzdu. Dənizdə şiddətli bir fırtına vardı. Nihajət Petrovskinin jaqınlığında arvat øldy. Əlbəttə ki, şybhəli bir xəstəliklə ølən bu arvadın mejitini Bakıja gətirib çıqarmaq mymkyn dejildi. Onsuz da øly ijlənməgə başlamışdı. Buna gørə mən əmr etdim ki, onu dənizçilərin qajdasınça dənizdə dəfn eləsinlər. Arvadı dənizə buraqarkən zavallı qız çoq janıqlı bir surətdə ağlajır, bytyn paraxoddakıları mytəəssir edirdi. «Aj məmə, indi mən nejləjim» dejərək øz çarəsizligini ifadə etdikçə məni də ağlamaq dərəçəsinə gətirmişdi. Birdən bu bədbaxt qız nə japsa jaxşı olar. Mejitin arqasınça øzyny dənizə atmaq istəməzmi? Jaxşı ki, matroslardan birisi çəld tərpənərək onu dutub saqladı. Bu qız artıq jaşınmağı—zadı unudub əlimizdə çırpınır, anasilə bir jerdə ølmək istəjirdi. Doğrudan da onun halı çoq façiəli idi. Gøzləri iki-yç gyndə ağlamaqdan qızarmış, yzyny, sinəsini dırnaqlarilə qanatmış, qara və gur saçları da pərişan bir halda yzynə tøkylmyşdy.

Biz qızı qajığa aldıq. Onu myzəmmətləməgə, ejni zamanda təsəlli verməgə başladıq. Øjrəndik ki, bu qız Şamaxılıdır. Bøjyk zəlzələdə evləri dağılmış, atası onları əvvəl Bakıja gətirmiş, sonra Xorasana gedib orada jerləşib jaşamaq istəmişlər. Guja onların Xorasanda jaqın bir əqrabaları da varmış. Ançaq bu adamı onlar Xorasanda tapa bilməmişlər. Kişinin maddi vəzijjəti getdikçə fənalaşır, pulu tamamilə qurtarır; sonra çarəsi hər jerdən kəsilərək qovurmaçılığa başlajır. Çørəkləri çıqırmış. Bir il qədər orada qalırlar. Kişi birdən-birə xəstələnir, bir həftədən sonra ølyr. Onlar artıq Xorasanda jaşaja bilməjib, var joqlarını satub Bakıja qajıdırlar. Əşqabadda arvad da xəstələnir. Bir an əvvəl øzlərini Bakıja jetirməgə çalışırlar. Arvat qorqurmuş ki, jolda ølər qızı tamamilə ortada qalar. Xəstə halında gəlyb Qrasnovodskijə çıqırlar. Bədbaxtlıqdan kənik-quruşları da qurtarır. Paroxod ycyn kifajət qədər pulları da olmajır. Bu zaman «Iran» paroxodu Qrasnovodskidə imiş. Onları pulsuz olaraq øz içərisinə alırsa da sonra Həştərxana gəlməgə məçbur olur. Xəstə arvadı Həştərxana gətirir. Doğrudan da qızın halı çoq açınaçaqlı idi. Kimsəsi joq idi, jənə oğlan olsa idi bir o qədər dərdi olmazdı. Bir azdan sonra øjrəndik ki, onu Bakıda øzyndən iki jaş bøjyk Səlim adlı bir qardaşı var imiş. Xalasının janında jaşajırmış. Biz qızı saq və səlamət gətirib Bakıja çıqardıq. Fəlakət orasında idi ki, bu qız nə xalasının adresini bilirdi, nə də ərinin adını. Onlar Şamaxıdan çoqdan çıqıblarmış. Guja xalasının ərini «Mirzə əmi» dejil çağırarmış. Buna gørə Şərifə belə bir qərarə gəldik ki, onu dajısı arvadı Şərəbanı xanımın janına aparsın. Şərəbanı xanım çoq jaxşı bir arvat imiş. Mən onu ta kiçik jaşlarından tanıjırdım. Inandırdım ki, o, bu jetim qıza lazım olan jardımı edər. Indi Şərəbanı xanım da vəfat etdigindən o qızın gələçəgi nə olaçağını bilməjirəm.

— O qızın adı nədir—dejə joldaşlardan biri sordu.

— Sejfi yzyny Şərifə dutdu.

— Gərək ki, Tərlan idi—eləmi?

Şərif təsdiq etdi «Tərlan»-dır dedi.

***

II

Şərəbanı xanımın vəfatından sonra Haçı Məhəmməd Haşımın evində hiss ediləçək bir ujğunsuzluq var idi. Ev xidmətçiləri bir-birlərilə jola getməjirdilər. Səkkiz ildən bəri bu evin aşbazı olan Sənəm arvadın hər işə qarışması bu ujğunsuzluğu daha da kəsginləndirmişdi. Tatar qızı Çəmilə, xanımın qırq ehsanından sonra çıqıb gedəçəgini bildirir. Kimsədən mysaədə almadan øzynə qulluq aqtarmaq məqsədilə hər gyn bir neçə saatını bajırda keçirdi

Zatən kimsədən mysaədə istəjəçəkdi ki, bu evdə bir sahib joq idi. Həjət gədəsi Qulaməli də xanьmьn vəfatьndan sonra qarnьnьn dojmadьqьndan şikajətlənib haq-hesabьnьn verilib jola salьnmasьnь tələb edirdi. Hec bir işə qarьşmajan, hər kəslə mehriban kecinmək istəjən Fatma xala, habelə cərək japan Tubi bibi də Sənəm arvatdan narazь idilər. Sənəm arvat øzyny bu evin bir xanьmь kibi hiss edir, Haçь Məhəmməd Haşьm ycyn sankь çanь jananlьq edərək bu əski xidmətcilərin hər işinə qarьşьr, jeməklərindən kəsir. bir an əvvəl cьqьb jerlərinə getmələrini, hər xysusda øzynə tabe' olaçaq başqa xidmətcilər də'vət olunmasьnь istəjirdi. Hələ buna gørə də hər səhər bir taqьm şikajətlərlə Haçь Məhəmməd Haşьmьn otaqьna gedər, sankь myhym bir hadisə olmuş kibi, ev qulluqcularьnьn bytyn işlərini javaş səslə mybaləqəkaranə bir şəkildə bøjydyb xəbər verərdi.

Bu evdə hər kəsdən artьq Tərlanьn vəzijjəti aqьr idi. Tatar qьzь Çəmilə øzynə başqa evdə xidmət tapa biləçəgi kibi, Fatma xala da başьnь kyrəkəninin damь altьna soqub kecinə bilərdi. Tərlanьn isə daldalanaçaq hec bir jeri joq idi. Doqrudur Şərəbanь xanьm onu hər zaman «qьzьm» dejə caqьrьrdьsa da həqiqət halda o bu evin hec bir şeji dejildi.

Bu gynlərdə Şərəbanь xanьma qьrq ehsanь veriləçək, ondan sonra da Haçь Məhəmməd Haşьm evlənəçəkdi. Şərəbanь xanьmьn jerinə gələçək bu arvadьn Tərlanla əlaqəsi nə jolda olaçaqdь. Burasьnь dyşyndykçə onun yrəginə bir coq fikirlər gəlirdi. Bir hal ona ymid verirdi ki, Haçь Məhəmməd Haşьm ona qarşь mehriban idi. Son zamanlarda bu mehribanlьqь, bir az da artmьşdь. Hər zaman qaşqabaqlь gørynən, ev qulluqcularilə bir kəlmə də danьşmaq istəməjən Haçь Məhəmməd Haşьm, bu aqsaqqal qoça onun yzynə gylymsər «Hə neçəsən, jaxşьsanmь?» dejib halьnь soruşardь. Ehtimal Tərlan jenə də bu evin bir qьzь olaraq qalaçaqdь.

Haçь Məhəmməd Haşьm evində davam edən ujqunsuzluqu bilirdi. Onun øzynyn də istirahəti pozulmuşdu. Qohum, əqrəbasь coq olsa da onlarla rəftarь coq sojuq olduqundan, arvadьnьn vəfatьndan sonra onlarьn ajaqlarь bir kərəlik bu evdən kəsilmişdi. Buna gørə evinin idarəsi tamamilə ev xidmətcilərinin ixtijarьna buraqьlmьşdь.

Haçь Məhəmməd Haşьm Şərəbanь xanьmьn vəfatьndan sonra evlənmək barəsində demək olur ki, hər zaman dyşynyrdy. Bu iş onun qarşьsьnda myhym bir əmr kibi durmuşdu. O, ømrynyn bu qoça vaqtьnda kimlə evlənə bilərdi. Øzynyn də sihhəti jerində dejildi. Xəstə idi. Xəstəligini, søjlədiginə gørə doqtorlar tapa bilməmişdilər. O, jedigini həzm edə bilməjirdi. Ølymyny gøzy qarşьsьnda çanlandьrarkən illər boju qazanьb topladьqь sərvətin Şərif kibi bir vərəsənin əlinə dyşəçəgini dyşynyr, vyçudunu bir yşymə alьr, tez onu xatьrьndan cьqarmaqa calьşьrdь.

Bir necə il əvvəl Iranlь bir həkimin ona søjlədigi bir søzy hər zaman xəjalьnda gətyr-qoj edirdi. Bu køhnə həkim ona çavan bir qьzla evlənməni məsləhət gørmyşdy. Gənç bir qьzьn joldaşlьqь Haçьnьn sønməgə yz qojan həjatьnь şənləndirə biləçəkdi, ançaq Haçь Məhəmməd Haşьm coq myhafəzəkar idi. Çamaatьn dedi-qodusundan çəkinərək otuzbeşillik həjat joldaşь olan Şərəbanь xanьmьn ystynə çavan bir qьz almaq istəməmişdi. Zatən Şərəbanь xanьmьn bir qadьn olmasьna baqmajaraq onun yzərində bøjyk bir tə'siri vardь. Indi isə bu qadьn Haçь Məhəmməd Haşьm ycyn coq açь da olsa artьq joq idi. Haçь mytləq evlənməli idi.

Həkimin tevsijəsilə çavan bir qьz ala bilərdi. Həjatьnьn son gynlərini bu qьzьn sьçaq aquşunda kecirməklə qoçalьqdan nəş'ət edən xəstəliginin açьlarьnь qismən təsvijə edə bilərdi. Ançaq jenə onun qarşьsьnь çamaatьn dedi-qodusu kəsmişdi.

Bu səhər sybh namazь ystyndə Haçь Məhəmməd Haşьm jenə bu barədə coq dyşynmyş, hətta iki rik'ət namazь caşaraq dørt rik'ət qьldьqьndan onu tazalamaqa məçbur olmuşdu. Dəllək kəlbə Mirəziz gələrkən, o hələ çanamaz ystyndə qur'an tilavətilə məşqul olduqu halda fikrində jenə evlənmək barəsində dyşynməkdə idi.

Indi dəllək Mirəzizin søzlərinə Haçь bøjyk əhəmijjət verirdi. Usta onun daz və arьq başьnь iki avçь içinə alaraq mysəlman dəlləklərinə maxsus bir məharətlə avuşdьrьb islatmaqa başlarkən, pənçərənin aq pərdəsi ystyndəki lampa hisi nəzəri-diqqətini çəlb etmiş.

— Çənab Haçь, rəhmətlikdən sonra gørynyr istirahətiniz pozulmuşdur—demişdi.

— Aj usta—dejərək, Haçь ona myraçəət etdi—Səndən bir søz soruşum!

— Bujurunuz çənab Haçь! ikisini soruşunuz!

Uzunculuq etmək, mətləbi uzatmaq dəllək kəblə Mirəzizin bir xasijjəti idi. Buna baqmajaraq Haçь ona inanьrdь. O, coq uzuncu da olsa, bøjyk adamlarьn søzlərini saqlamaqь bilirdi. Hələ bu məzijjətinə gørə də Bakьnьn Haçь Məhəmməd Haşьm kibi bøjyk taçirlərinin evlərinə gedər, onlarьn başlarьnь qьrxardь.

Haçь soruşdu:

— Xədiçəji-Kubra vəfat edəndə, rəsuli-əkrəmin necə jaşь vardь.

— Çənab Haçь, tarixlərin jazdьqьna gørə, onda sələvatyllahi və səlamyhy əleih Məkkədə jaşajьrdьlar. Mədinəjə hiçrət vaqe' olmamьşdь,—dejə uzun izahat verməgə hazьrlanarkən Haçь onun søzyny kəsdi.

— Aj rəhmətlik oqlu, sən jenə uzunculuquna başladьn ki., mən səndən soruşuram ki, həzrətin necə jaşь vardь, sən də de bu qədər, qurtarsьn getsin!

— Qьrq səkkiz jaşlarьnda, idilər.

Qьrq səkkiz jaşь Haçь Məhəmməd Haşьmь acmadь. O, bu jaşь øzynyn altmьş bir il əmrilə myqajəsə etdi. Ortada on yc illik bir fərq vardь. Bir çavab verməjib sykut etdi.

Dəllək Kəblə Mirəziz Haçьnьn başьnь isladьb bitirdikdən sonra ylgyçyny øz səliqəsilə hazьrlajьb kəmali-e'tina ilə biləv daşьna çəkməgə başladьsa, fikri Haçьda idi. O, coq nazik adam idi. Haçь Məhəmməd Haşьmьn bu sualьndan haman saat anlamьşdь ki, o—uzun myddət dul qalmajaçaq, bu jaqьnlarda evlənəçəkdir. Aldьqь çavabdan məmnun qalmadьqьnь da yzynyn xətlərindən, xysusilə alnьndakь dyjymdən hiss etdi. Øzlygyndə bu nətiçəni cьqartdь ki, Haçьnь jaş məsələsi coq dyşyndyryr. Demək o, çavan bir arvat almaq fikrindədir.

Øzynə maxsus xoş bir ahənglə jastь-jastь burnunda danьşmaqa başladь:

— Həzrəti-rəsuli-əkrəm Mədinəjə hiçrət edəndən sonra Ajişəni aldь. Ajişə Əbubəkrin qьzь idi. Onun doqquz jaşь hələ tamam olmamьşdь. Buna gørə bir necə aj gøzlədi ki, həddi-byluqa catsьn.

— Bir əl saqla—dejə, Haçь ustanь saqladь. Rəsuli-Əkrəm qьrq jaşьnda olduqu halda doqquz jaşьnda qьzla evləndi.

— Bəli-bəli... çənabi Haçь.. Mirəziz səsini uzadaraq tə'kidlə təsdiq etdi.

Haçь Məhəmməd Haşьm xəjalьnda bir tərh əməlijjatь japdь. Ajişənin doqquz jaşьnь Məhəmməd pejqəmbərin qьrq səkkiz jaşьndan cьqdь.

— Deməli aralarьnda otuz doqquz il fərq vardь.

— Bə'li. Ajişə həzrətdən otuz doqquz il kicik idi. Bunun yzərinə Mirəziz təfsilat verməgə başladь.

Haçь Məhəmməd Haşьm onun sojlədiklərini dinləməjib fikrində rəqəmləri dutuşdururdu. Mirəziz işini bitirib kicik əl ajnasьnь cuxasьnьn qolu ilə silərək Haçьja verdikdə o; bu nəticəjə gəlmişdi ki, Məhəmməd pejqəmbər ozyndən otuz doqquz jaş kicik bir qьz almьşdь. Mən onu alsam onun jaşь bu saat on doqquz və ja ijirmi olsa, məndən qьrq bir il kicik olur ki, bu myamılədə mənimlə pejqəmbərimizin arasьnda ancaq iki-yc il qədər bir fərq olur.

Dəlləgi jola salandan sonra Haçь ajaqa qalqdь. Uzun tirməşal qurşaqьnь sərijib ajnanьn qarşьsьna kecdi. Coq diqqətlə ozynyn sifətini nəzərdən kecirdi. Bir qədər sejrək olan saqqalь tamamilə aqarmьşdь.

Mahьt çybbəsini cijninə salaraq o biri otaqa kecdi. Hazьrlanmьş caj syfrəsinin başьnda salьnmьş døşəkcə ystyndə baqdaş qurub oturdu. Aq, bəjyk samavar pьqqьltilə qajnamaqda idi. Bu halda yzyny, başьna qьjqaçь saldьqь qara şalla jarь ortən Sənəm arvat qapьdan daxil olaraq:

— Sabah şərifiniz xejr olsun, Haçь aqa—dejib, samavarьn janьnda oturmaq istədi. Hər gyn Haçьnьn cajьnь o təkyb verərdi. Onun da gənlyndə bir arzьsь vardь. Bu bəlkə sadəçə bir arzь dejil, Şərəbanь xanьmьn vəfatьndan sonra onda inam halьna girmiş bir zehnijjət idi: Haçь Məhəmməd Haşьmьn arvadь olmaq. O, Haçь Məhəmməd Haşьma ozyndən mynasib bir həjat joldaşь təsvir etməjirdi. Bu məqsədlə də ozyny Haçьja bəjəndirməgə calьşьr, baş-gøzynə diqqət edir, çan janьqlьqьnь bildirmək ycyn hər səhər bir taqьm sozlərlə onun zəhləsini təkyrdy. Jenə şikajətə başladь.

—Siz Haçь, bu Qulaməlijə bir açьqlanьnьz. Jenə it oqlunun nəhsligi dutub... søzə hec qulaq asmajьr. Hər nə dejirəm salьr qulaq ardьna.. Bu gyn də başlajьb ki, su daşьmajaçaqam.. Tatar qьzь da cьqьb getmək istəjir. Izin veriniz onu da salьm jola getsin, onun da işini hələ Tərlan da gørə bilər.

Haçь, Sənəm arvadьn gønlyndən kecəni hiss etmişdi.

— Bu saat get Tərlanь gøndər gəlsin bura—dedi, sonra da bytyn qulluqcularь caqьr. Dalandarьn arvadьnь da...

Sənəm arvat «baş ystə» dejib bajьra cьqdь.

Tərlan qapьdan icəri girdikdə Haçь onu altdan juqarь başdan ajaqadək diqqətlə nəzərdən kecirdi. Onun bir az qara buqdajь məlahətli yzyndə bir solqunluq myşahədə edilirdi. Başьnda qara ipək bir kəlaqajь vardь. Şərəbanь xanьmьn vəfatьnda bir matəm əlaməti olmaq ycyn Haçь tərəfindən aldьrьlmьşdь.

— Hə, jaqьn gəl gørym dejə təklifsiz ona myraçəət etdi. Hər gyn Sənəm arvadьn işqal etdigi, vaqtilə Şərabanь xanьmьn oturmaqda olduqu samavarьn saq tərəfini əlilə işarə edərək:

— Gəl otur, dedi. Mənə bir caj tək!

Tərlan kəmali-ədəblə gøstərilən jerdə iki diz ystə oturub istəkanь jaqalarkən Haçь soruşdu:

— Bu Sənəm arvat nə dejir?

Tərlan Haçьdan bir az çəkinir, nədənsə onun yz-gøzyndə bir vəhmə hiss edirdi. Haçьnьn sualьndan bir şej anlamadь:

— Neçə məgər? dejib soruşdu.

— Hər gyn tazə xəbərlə gəlib baş-bejnimi aparьr. Gorynyr ev qulluqcularьnь bir az inçidir, hə?

— Mən bilməjirəm!

— Joq, joq.!.. sən gərək biləsən. Sən gərək hər şejə gøz olasan.. Øzyn gøryrsən ki, mənim başqa bir adamьm joqdur... bu arvada coq da ixtijar vermək olmaz.

Haçь sozyny bitirməmişdi ki, ev qulluqcularь qapьda gøryndylər.

— Icəri gəlin! Haçь onlarь caqьrdь. Hamьsь gəlib toplaşandan sonra başladь:

— Sabah joq, o biri gyn xanьmьn qьrqьdьr. Bizim ehsan məçlisimiz olaçaq. Mən gøryrəm ki, siz bir-birinizlə jola getməjirsiniz. Bu jaramaz. Hər birinizin narazьlьqь varsa bu iki gyny qojun qalsьn. Belə olmasьn ki, biz xanьmьn ehsan meçlisini jaxşь apara bilməjək. Buna gørə mən istəjirəm biriniz bu evdə hələlik bəjyk olsun. Jerdə qalanlar da ona qulaq assьn. Indi hec kəsin søzy o birinin qulaqьna girməjir. Siz gərək mənim tə'jin etdigim bu adama neçə ki, rəhmətlik xanьma tabe' olurdunuz, elə tabe' olasьnьz!

Tərlanьn gøzləri jaşardь. O, Şərəbanь xanьmdan coq məhribanlьq gørmyşdy.

Sənəm arvat:

— Hələ mən də onu ərz edirəm ki, siz Haçь bunlarьn ystyndə bir nəfərimizi bøjyk tikiniz.

Qulaməli coq həjəçanlь idi, səhər Sənəm arvatla mybahəsəsi olmuşdu. Øzyny saqlaja bilmədi.

— Baq, aqa!.. mən bu evin nøkərijəm. Indidən sənə dejirəm, mən, baq bu Sənəmə qulaq asmajaçaqam! Istəjirsən məni lap aqaçla døg, mən ona qulaq asmajaçaqam!..

Qulaməlinin bu acьq e'tirafьndan Haçь açьqlanmadь. Əksinə olaraq alnьndakь dyjyn bir az acьlan kibi oldu.

— Bu gyndən dedi, Tərlan xanьm sizin bøjygynyz olur.

Qulaməli istədi ki, sevindigindən papaqьnь gøtyryb jerə vursun.

— Vallah aqa xanьmьn goru haqqь lap yrəgimdən danьşdьn!.

— Haçь gylymsədi:

— Hamьnьz ona qulaq asaçaqsьnьz!.. dedi.

— Tərlan xanьm atama da søjsə, jenə onun səzyndən cьqmaram. Baq, lap su da daşьjaram, həjət-baçanь da sypyrərəm, odun da jararam, nə bujursa bu başьm ystə!

Bu tə'jindən jalьnьz Sənəm arvat məmnun qalmadь.

Haçь døşəkcənin altьndan bir dəstə acar cьqarьb Tərlana tərəf uzatdь:

— Al, bu acarlarь saqla øzyndə. Aşaqьdakь ambarlarьn və sandьqlarьn acarlarьdьr, hər kəsə nə lazьm olsa səndən istəsin. Alьb verərsən. Sonra da geri alьb jerinə qojarsan.

Sənəm arvada da tapşьrdь ki, bu gyn, sabah evə gələçək şejləri jer-bə-jer elədikdə Tərlan xanьma jardьm eləsin.